

# Mövludun mübarək, Şəhidim!

*Qəbələnin bu kəndində 1992-ci ilin fevral ayının 20-sində anadan olmuş Vüqar da adicə kənd uşaqlarından biriydi. Lakin, 44 günlük müharibə onu minlərlə, milyonlarla insanlara şücaətinə, igidliyinə, qəhrəmanlığına görə tanıdı və hamının qəlbində, dilində fəxrlə, hörmətlə əbədi qaldı.*

Səmədli Vüqar Vaqif oğlu 1998-ci ildə Qəbələnin Yengicə kənd məktəbinin 1-ci sinfinə gedib, 2007-ci ildə həmin məktəbi bitirib. 2010-cu ilin aprelində həqiqi hərbi xidmətə çağırılıb. Bakı şəhərində yerləşən N saylı hərbi hissənin Sülhməramlı qüvvələrində xidmət edib. 2011-ci ilin oktyabr ayında hərbi xidmətini başa vuran Vüqar ailələrindəki maddi çətinliyə görə Çeçenistanda tikintidə işləməyə gedib. Tovuz döyüşlərində general Polad Həşimovun şəhid olduğunu eşidib, işini ataraq Vətənə qayıtmağı qərara alıb. Bir müddət karantində qalıb, oktyabrın 1-də evə gəlmədən hərbi komissarlığa gedib, könüllü orduya yazılıb. Dörd gündən sonra - yəni oktyabrın 5-də könüllü olaraq müharibəyə gedib. Bir neçə gün Ağcabədidə N saylı hərbi hissədə qalıb və daha sonra - Mən buraya yatmağa yox, döyüşməyə gəlmişəm, - deyərək komandanlığa müraciət edib. Beləcə, kəşfiyyatçı kimi döyüşlərə qatılıb, Zəngilan, Qubadlı, Füzuli, Cəbrayılın düşmənlərdən azad olunmasında fəal iştirak edib. Daha sonra Şuşa uğrunda döyüşlərə qatılıb. 2020-ci il noyabr ayının 2-də Şuşanın Daşaltı kəndi uğrunda gedən ağır döyüşlərdə şəhid olub. Noyabrın 3-ü, ertəsi gün onu doğulduğu Yengicə kəndində dəfn ediblər.

Şəhid Səmədli Vüqar Vaqif oğlu ölümündən sonra cənab Ali Baş Komandan İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Cənnətdəki mövludun mübarək, Şəhidim!

**N.Kərimova**

İki sahil.- 2022- ci il.- 8 aprel.- S. 3.